# Ulu öndərin qalibiyyət təlimi

**Azərbaycanın müasir tarixində 2020-ci il Qarabağ Zəfəri təkcə hərbi qələbə deyildi, bu, eyni zamanda milli qürurun, strateji düşüncənin və dövlətçilik irsinin təntənəsi idi. Bu uğurun kökləri müasir Azərbaycan dövlətçiliyinin banisi Heydər Əliyevin qurduğu möhkəm siyasi və ideoloji təməllərdən qaynaqlanırdı.**



Dahi şəxsiyyətin ordu quruculuğu və milli həmrəyliyi gerçəkləşdirən siyasəti sayəsində Azərbaycan gələcəkdə tarixi torpaqlarını azad etmək üçün hazır vəziyyətə gətirilmişdi. Belə ki, ümummilli lider çətin, ağır illərdə Azərbaycanı üzləşdiyi böhranlardan çıxararaq dövlətin gələcək uğurları üçün əsas sütunları qurmuşdu. Onun siyasi fəlsəfəsinin əsasında güclü dövlət, milli birlik və strateji müstəqillik dayanırdı. Dahi şəxsiyyət 1990-cı illərin çətin dönəmində, iqtisadi tənəzzül və daxili qarşıdurmalar şəraitində Azərbaycanda sabitliyi gerçəkləşdirdi, dövlət institutlarını möhkəmləndirdi və milli ruhu bərpa etdi.

Onun rəhbərliyi dövründə Milli Ordunun qurulması prioritet elan edildi, xarici siyasətdə balanslı, çoxşaxəli kurs formalaşdırıldı, təhsil, elm və mədəniyyətə xüsusi diqqət göstərildi, Qarabağ məsələsi isə daim milli siyasətin əsas hədəfi kimi saxlanıldı. Ulu öndərin siyasi uzaqgörənliyinin və məsuliyyət hissinin dərinliyini isə onun 1993-cü il oktyabrın 10-da keçirilən andiçmə mərasimindəki nitqi aydın göstərirdi. O zaman dahi şəxsiyyət xalqa müraciətlə deyirdi: "Müstəqil Azərbaycan Respublikasının Prezidenti seçilməyimi yüksək qiymətləndirirəm və bu münasibətlə Azərbaycan xalqına, Azərbaycan Respublikasının bütün vətəndaşlarına öz hörmət və ehtiramımı, dərin minnətdarlığımı bildirirəm.

Azərbaycan xalqı öz tarixinin ən mürəkkəb, faciəli dövrünü yaşayır. Məhz bu dövrdə mənim üzərimə qoyulan bu vəzifənin məsuliyyətini dərindən dərk edirəm və əmin etmək istəyirəm ki, bütün fəaliyyətimi, bütün həyatımı bu etibarı doğrultmaq, xalqın ümidlərini doğrultmaq işinə həsr edəcəyəm.

Belə bir yüksək məsuliyyətli vəzifəni öz üzərimə götürərkən, ilk növbədə, Azərbaycan xalqının zəkasına, müdrikliyinə, qüdrətinə güvənirəm, arxalanıram. Azərbaycan xalqının mənə bəslədiyi ümidlər məni bu vəzifəni üzərimə götürməyə məcbur edibdir. Əmin etmək istəyirəm ki, bu ümidləri doğrultmaq üçün əlimdən gələni əsirgəməyəcəyəm".

Bu sözlər sadəcə bir siyasi bəyanat deyildi, həm də sonrakı illərdə Azərbaycanın inkişaf yolunun ideya təməli idi. Ümummilli lider Heydər Əliyev bu təməl əsasında elə bir dövlət modeli qurdu ki, bu, illər sonra Qarabağ zəfərinin bünövrəsini təşkil etdi.

Xatırladaq ki, ulu öndər Heydər Əliyev keçmiş SSRİ zamanında da Qarabağ məsələsinə xüsusi diqqət göstərmişdi. 1969–1982-ci illərdə respublikaya rəhbərliyinin ilk dövründə Dağlıq Qarabağ Muxtar Vilayətində (DQMV) Azərbaycanın hüquqlarının qorunması üçün Moskvada diplomatik danışıqlar aparmış, əhalinin demoqrafik balansını qorumaq üçün inzibati qərarların qəbulunu təşviq etmişdi. Heydər Əliyev hələ Azərbaycan Dövlət Təhlükəsizliyi Komitəsində işləyərkən ermənilərin DQMV-də gizli fəaliyyətlərindən xəbərdar olmuş, onlara qarşı lazımi tədbirlər görülməsi üçün ciddi təşəbbüslər göstərmişdi.

Ulu öndər Azərbaycan KP MK-nın birinci katibi seçildikdən sonra vilayətin sosial-iqtisadi inkişafına dair müvafiq tədbirlərlə ermənilərin hər hansı bir narazılığına bəhanə yeri qoymamışdı, Qarabağ regionunda iqtisadi və sosial layihələri təşviq edərək Azərbaycan mədəniyyətinin möhkəmlənməsinə də xidmət etmişdi. Dahi şəxsiyyət erməni separatizmi və yerli qarşıdurmaların qarşısını almaq üçün balanslı siyasət yürüdərək regionda sabitliyi qorumuşdu.

Məhz 1969-cu ildə Heydər Əliyev Azərbaycana rəhbər seçildikdən sonra respublikada hər şey demək olar ki, tədricən müsbət istiqamətdə dəyişməyə başlamışdı. O, əsasən milli hüquqların qorunması və erməni separatizminin qarşısının alınması istiqamətində fəaliyyət göstərmişdi. Belə ki, erməni millətçilərinin xalqımıza qarşı davamlı xəyanət və cinayətlərinin tarixini dərindən bildiyinə görə respublikaya rəhbərliyinin birinci dövründən başlayaraq Ermənistanın Azərbaycana qarşı gizli ərazi iddialarının və Dağlıq Qarabağdakı erməni riyakarlıqlarının qarşısını qətiyyətlə almışdı.

Heydər Əliyev 1982-ci ildə SSRİ rəhbərliyinə – Nazirlər Soveti sədrinin birinci müavini və Siyasi Büronun üzvü keçdikdən sonra Qarabağ məsələsi SSRİ səviyyəsində geniş müzakirə edilməmişdir. Onun nüfuzu və təcrübəsi separatizmin açıq şəkildə yüksəlməsinin qarşısını almışdır. 1987-ci ildən vəzifədən uzaqlaşdırıldıqdan sonra erməni separatizmi bölgədə iddialarını artırmağa başlamışdır.

1993-cü ildə Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə Qarabağ müharibəsi dövründə Azərbaycan ciddi böhran içərisində idi. Dövlətin süqut təhlükəsi, iqtisadi və hərbi zəiflik fonunda Heydər Əliyev həm cəbhədə sabitliyin təmin olunması, həm də diplomatik səylərin gücləndirilməsi istiqamətində mühüm addımlar atdı. 1994-cü ildə atəşkəsin əldə edilməsi onun rəhbərliyinin ən önəmli uğurlarından biri oldu. Eyni zamanda, Azərbaycanın ərazi bütövlüyü beynəlxalq hüquq çərçivəsində təsdiqləndi, ATƏT-in Minsk qrupu çərçivəsində danışıqlar prosesi başlandı. Heydər Əliyev ölkənin iqtisadi bazasını gücləndirərək gələcək hərbi-siyasi strategiyalar üçün zəmin yaratdı.

Ümummilli lider Azərbaycanın ərazi bütövlüyünü prinsipial olaraq qorumuş, dövlətin parçalanmasının qarşısını almışdı. O, strateji addımları ilə müstəqil Azərbaycanın beynəlxalq mövqeyini gücləndirmiş və gələcəkdə hərbi-siyasi imkanların inkişafı üçün əsas yaratmışdı. Azərbaycanın gələcək zəfərinə hazırlıq məqsədilə Heydər Əliyev bir sıra konkret addımlar atmışdı. Ulu öndər, eyni zamanda, dövlət idarəçiliyində sabitliyi reallaşdırmış, peşəkar və intizamlı ordu quruculuğunu prioritet elan etmiş, zabitlərin xaricdə təhsil almasını və beynəlxalq hərbi əməkdaşlığı diqqət mərkəzində saxlamışdı. Diplomatik sahədə də fəaliyyəti davam etdirərək Azərbaycanın ərazi bütövlüyünü beynəlxalq səviyyədə müdafiə etmiş, iqtisadi əsasları möhkəmləndirərək dövlətin maliyyə gücünü artırmışdı. Eləcə də milli həmrəyliyi və vətənpərvərliyi yüksək səviyyəyə qaldıraraq Qarabağ məsələsinə prioritet və milli məsələ kimi yanaşmışdı.

Prezident İlham Əliyev də bu siyasəti davam etdirərək ordunu modernləşdirdi, Azərbaycanın ərazi bütövlüyünü beynəlxalq səviyyədə müdafiə etdi və Qarabağın işğaldan azad olunması üçün iqtisadi gücü reallaşdırdı. Bunun nəticəsində 2020-ci ildə Azərbaycan həm diplomatik, həm də hərbi baxımdan güclü mövqe ilə Qarabağ Zəfərini əldə etdi.

44 günlük Vətən müharibəsində Azərbaycan Ordusu uzun illər işğal altında qalan torpaqları geri aldı. Bu qələbə təkcə müasir silahlarla deyil, Heydər Əliyevin qurduğu dövlətçilik ənənəsi, formalaşdırdığı ordu və gücləndirdiyi milli ruh sayəsində əldə edildi.

Heydər Əliyev yalnız siyasi lider deyil, həm də Azərbaycanın milli yaddaşını və dövlətçilik şüurunu formalaşdıran şəxsiyyət idi. Onun strategiyası və irsi Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildi. Qarabağ Zəfəri də dövlətimizin başçısının ideyalarının, xalqın birliyinin və güclü dövlət modelinin parlaq nəticəsi idi.

Xatırladaq ki, Heydər Əliyev milli həmrəyliyi və vətənpərvərlik ruhunu da gücləndirirdi. Dahi şəxsiyyət Qarabağ məsələsini təkcə siyasi və hərbi problem kimi deyil, həm də milli kimlik və mənəvi məsələ kimi təqdim edirdi. Onun çıxışlarında tez-tez səslənən "Qarabağ Azərbaycanın ürəyidir" fikri də bu istiqamətdə ideoloji xəttə çevrildi.

Vətən müharibəsində əldə edilən tarixi Zəfər bir daha göstərdi ki, milli birliyi qorumaq, strateji düşüncə ilə hərəkət etmək və vətənpərvərlik ruhunu gücləndirmək xalqı qalibiyyətə aparır. Heydər Əliyevin və İlham Əliyevin uzaqgörən siyasəti, Azərbaycan Ordusunun peşəkarlığı və xalqın iradəsi birləşərək Qarabağı azad etdi. Bu Qələbə həm keçmişin, həm də gələcəyin qürur mənbəyinə çevrildi. Beləliklə, bu tarixi hadisə həqiqi liderliyin və milli birliyin təntənəsi kimi tarixə yazıldı.

*Şəlalə QULUZADƏ,*
*Ədliyyə Nazirliyi*
*Ədliyyə Akademiyasının baş müəllimi,*
*ədliyyə müşaviri*

Xalq qəzeti .- 2025.- 8 noyabr (№ 239).- S.6.